## Azərbaycan Respublikası

## Maliyyə Nazirliyi

# “İqtisadi sahələrin maliyyəsi şöbəsi”nin

# ƏSASNAMƏSİ

**Naxçıvan – 2025**

Əlavə VI

Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin “14” fevral 2025-ci il tarixli “3-23-69/3-1-63/2025” nömrəli Əmri ilə təsdiq edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin**

**İqtisadi sahələrin maliyyəsi şöbəsi haqqında**

**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

**1.1.** Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin (bundan sonra Nazirlik) İqtisadi sahələrin maliyyəsi şöbəsi (bundan sonra – Şöbə) dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyətində, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələrində maliyyə siyasətinin həyata keçirilməsində və onun idarə olunmasının təşkil edilməsində, habelə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanmasında iştirak edən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi Aparatının struktur bölməsidir.

**1.2.** Şöbə öz fəaliyyətində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyalarını, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərar və Sərəncamlarını, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının qərarlarını, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Əsasnaməsini, Nazirliyin əmr və sərəncamlarını, bu Əsasnaməni və hər il üçün təsdiq olunan iş planını rəhbər tutur.

**1.3.** Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən öz səlahiyyətləri çərçivəsində Nazirliyin Aparatının strukturu və tabeliyində olan qurumlar, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, həmçinin idarə və təşkilatlar ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

**2.1.** Şöbənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

**2.1.1.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə vahid maliyyə, büdcə və vergi siyasətinin istiqamətlərinə dair təkliflərin hazırlanması və bu siyasətin həyata keçirilməsində istirak edir;

**2.1.2.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsini mövcud qanunvericiliyə uyğun olaraq hazırlanması işlərini öz səlahiyyətləri çərçivəsində təşkil edir;

**2.1.3.** Hər il növbəti büdcə ili üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin və sonrakı üç il üzrə büdcə göstəricilərinin və layihələrinin ölkənin qanunvericilik və icra hakimiyyəti orqanlarında baxılması və müzakirəsi ilə əlaqədar olaraq aidiyyəti üzrə lazım olan hesablamaları hazırlayır;

**2.1.4.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə dövlət və sahə proqramlarının hazırlanmasında iştirak edir;

**2.1.5.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə dövlət maliyyəsinin sabitliyinin təmin edilməsi və maliyyə bazarının inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsində iştirak edir;

**2.1.6.** İqtisadiyyat sahələrində Naxçıvan Muxtar Respublikası büdcə vəsaitlərinin idarə edilməsinin, o cümlədən bölgüsünün səmərəliliyinin təmin edilməsində iştirak edir;

**2.1.7.** Nəzarət zərfi dövlətə məxsus olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunmasında səlahiyyətləri daxilində iştirak edir;

**2.1.8.** Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir;

## 3. Şöbənin vəzifələri

**3.1.** Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Şöbə aşağıdakı vəzifələri həyata keçirir:

**3.1.1.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə dövlət və sahə proqramlarının hazırlanması zamanı onların maliyyə-iqtisadi göstəricilərinin ekspertizasının aparılmasında iştirak etmək, həmin proqramlarda Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə verilmiş tapşırıqların icrasını təmin etmək;

**3.1.2.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyətinə, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələrinə Naxçıvan Muxtar Respublikası büdcəsindən vəsait ayrılması və digər maliyyə yardımları göstərilməsi ilə əlaqədar təkliflərin hazırlanmasında iştirak etmək;

**3.1.3.** Mövcud qaydalara uyğun olaraq dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə proqramların hazırlanması və fəaliyyətlərinin nizamlanması məqsədilə yaradılmış komissiyalarda Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyini təmsil etmək;

**3.1.4.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə dövlət mülkiyyətində olan təşkilatların göstəricilərinin proqnozlaşdırılmasında iştirak etmək;

**3.1.5.** İri dövlət vergi ödəyicilərinin gəlir və xərc smetalarının hazırlanmasında, monitorinqlərin aparılmasında və bununla bağlı məlumatların hazırlanmasında iştirak etmək;

**3.1.6.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə iqtisadi vəziyyətin nəticələri əsasında büdcə mədaxilinin artırılmasına yönəldilmiş təkliflərin hazırlanmasında iştirak etmək;

**3.1.7.** Dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə makroiqtisadi göstəricilərin proqnozlaşdırılmasında, həmin sahədə məqsədli büdcə fondlarının yaradılması və onlardan istifadə olunması ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

**3.1.8.** Müvafiq qaydalara uyğun olaraq dövlət mülkiyyətində olan müəssisələrin, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsini hazırlamaq, Naxçıvan Muxtar Respublikası büdcəsinin tərtibi və icrası qaydalarını təkmilləşdirmək barədə təkliflərin verilməsində iştirak etmək;

**3.1.9.** Qanunvericilik və icra hakimiyyəti orqanlarında Naxçıvan Muxtar Respublikasının büdcə layihəsi müzakirə olunan zaman Şöbə üzrə qarşıya çıxan irad, təklif və göstərişlərə dair aidiyyəti üzrə izahatlar və təkliflər hazırlayır;

**3.1.10.** Dövlət mülkiyyətində olan müəssisələrin, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə hazırlanmış Naxçıvan Muxtar Respublikası büdcəsinin mərkəzləşdirilmiş və yerli xərclərdən maliyyələşən, habelə məqsədli büdcə fondlarının büdcə layihələrini bölmələr üzrə müəyyən olunmuş müddətlərdə aidiyyəti struktur bölməyə təqdim etmək;

**3.1.11.** Naxçıvan Muxtar Respublikası büdcəsinin tərtibi və icrası ilə bağlı müvafiq qanunvericilik aktlarının, norma və qaydaların hazırlanmasında iştirak etmək;

**3.1.12.** Aqrar, ətraf mühit, kommunikasiya və xidmət sahələri üzrə təşkilatların təsdiq olunmuş büdcə ayırmaları həddində, bölmələrin xərc maddələri və funksional təsnifatın paraqrafları səviyyəsində iqtisadi təsnifatın yarımmaddələri arasında dəyişikliklər aparılması barədə təkliflər vermək və müvafiq qaydada aparılmış dəyişikliklər barədə aidiyyəti struktur bölmələrinə məlumat vermək;

**3.1.13.** Növbəti büdcə ili üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin təsdiq olunmuş göstəriciləri əsasında xərclərin məbləğini xidmət etdiyi sahələr üzrə büdcədən maliyyələşdirilən və vəsait alan sahələrə çatdırmaq;

**3.1.14.** Mövcud qanunvericiliyin tələblərinə əsaslanaraq öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin müvafiq göstəricilərinin dəqiqləşdirilməsi barədə təkliflər hazırlamaq;

**3.1.15.** Öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə Naxçıvan Muxtar Respublikası büdcəsindən, o cümlədən məqsədli büdcə fondlarından ayrılan vəsaitlərdən təyinatı üzrə istifadə olunmasına, habelə büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin maliyyə orqanlarına göndərilmiş smetaya uyğun istifadəsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

**3.1.16.** Büdcə-vergi proqnozlaşdırılmasının, dövlət mülkiyyətində olan müəssisələrin, nəzarət zərfi dövlətə məxsus olan qurumların fəaliyyəti, aqrar və ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələri üzrə maliyyə ehtiyatlarının aşkara çıxarılması və səfərbər olunması üçün tədbirlərin həyata keçirilməsində iştirak etmək;

**3.1.17.** Öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə büdcədən ayrılan vəsaitlərlə bağlı xərclər smetasının tərtibi, təsdiqi və icrasının ümumi qaydalarının müəyyən edilməsi məqsədilə təkliflər vermək;

**3.1.18.** Müvafiq qaydada aidiyyatı mərkəzi icra hakimiyyəti orqanları ilə birlikdə öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə mövcud vəziyyətin təhlil edilməsində və problemlərin həllinə dair təkliflər verilməsində iştirak etmək;

**3.1.19.** Büdcə sisteminin, büdcə-vergi göstəricilərinin proqnozlaşdırılmasının, maliyyə mexanizminin, uçot və hesabat qaydalarının təkmilləşdirilməsində iştirak etmək;

**3.1.20.** Büdcə-vergi siyasətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasında iştirak etmək;

**3.1.21.** Aqrar, ətraf mühitin qorunması, kommunikasiya və xidmət sahələrinə daxil olan büdcə təşkilatlarında əmək haqqı tariflərinin, vəzifə maaşlarının düzgün müəyyən edilməsində və tətbiqinə nəzarətin həyata keçirilməsində, onların strukturunun təkmilləşdirilməsinə dair təkliflərin verilməsində və digər proqramların hazırlanmasında iştirak etmək;

**3.1.22.** Dövlət orqanlarının iştirakı ilə yaradılacaq səhmdar cəmiyyətlərinin fəaliyyəti barədə qanunvericiliklə müəyyən olunmuş qaydada təkliflər verilməsində iştirak etmək;

**3.1.23.** Müəyyən olunmuş qaydada Şöbənin səlahiyyətlərinə aid məsələlər üzrə müvafiq normativ hüquqi aktların layihələrini hazırlamaq;

**3.1.24.** Şöbənin səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısının alınmasında iştirak etmək;

**3.1.25.** Nazirliyin fəaliyyəti ilə bağlı vətəndaşlardan daxil olan təklif, ərizə və şikayətlərə baxılmasında və onlara vaxtında cavab verilməsində və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər görülməsində Şöbənin səlahiyyətləri daxilində iştirak etmək;

**3.1.26.** Nazirliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanmasında iştirak etmək;

**3.1.27.** Qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görülməsində Şöbənin səlahiyyətləri daxilində iştirak etmək;

**3.1.28.** Naxçıvan Muxtar Respublikası büdcəsindən maliyyəşən təşkilatlardan, Nazirliyin yerli bölmələrindən, digər təşkilatlardan daxil olan sorğu və məktublara, həmçinin vətəndaşların ərizə və şikayətlərinə cavab və təkliflər hazırlamaq;

**3.1.29.** Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

**4.1.** Şöbə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** Öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə Naxçıvan Muxtar Respublikasının büdcə layihəsinin hazırlanması, onun tərtibi üçün sahənin mərkəzi icra hakimiyyəti orqanlarından, şirkət, birlik, müəssisə və təşkilatlardan, habelə büdcədənkənar dövlət fondlarından zəruri sənədləri almaq;

**4.1.2.** Nazirlik tərəfindən müəyyən edilmiş müddət ərzində və qaydada növbəti büdcə ilinə öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə Naxçıvan Muxtar Respublikasının büdcə layihəsinin tərtibi üçün lazım olan iqtisadi proqramların və proqnozların hazırlanması barədə əsaslandırılmış sənədləri aidiyyatı orqanlardan və təşkilatlardan almaq;

**4.1.3.** Öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməməsi halları aşkar olunduqda, həmçinin əvvəl ayrılmış vəsaitlərin xərclənməsinə dair hesabatların təqdim edilmədiyi hallarda idarələrin və təşkilatların Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşdirilməsini məhdudlaşdırmaq barədə Nazirliyin rəhbərliyinə təkliflər vermək;

**4.1.4.** Öz səlahiyyətləri daxilində müvafiq sahələr üzrə büdcə vəsaitlərinin, o cümlədən məqsədli büdcə fondlarının, büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin xərclənməsi üzərində Nazirliyin rəhbərliyinin göstərişinə əsasən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi tərəfindən aparılan yoxlamalarda iştirak etmək;

**4.1.5.** Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlardan xidməti fəaliyyəti ilə bağlı Naxçıvan Muxtar Respublikası büdcəsinin və büdcədənkənar dövlət fondlarının icrası və büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərindən istifadə haqqında məlumatlar almaq;

**4.1.6.** Müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

**4.1.7.** Müəyyən olunmuş qaydada Şöbənin səlahiyyətlərinə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

**4.1.8.** Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, maliyyə sahəsi üzrə elmi tədqiqatlar aparmaq, təkliflər vermək;

**4.1.9.** Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək;

## 5. Şöbənin fəaliyyətinin təşkili

**5.1.** Şöbənin strukturu, ştat cədvəli və işçilərinin ümumi say tərkibi Naxçıvan Muxtar Respublikasının maliyyə naziri tərəfindən təsdiq edilir.

**5.2.** Şöbəyə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən, Şöbəyə həvalə edilmiş vəzifələrin yerinə

yetirilməsi və hüquqlarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyan müdir rəhbərlik edir.

**5.3.** Şöbənin digər əməkdaşları bu Əsasnamə ilə müəyyən olunmuş qaydada Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

**5.4.** Şöbə müdiri aşağıdakı səlahiyyətlərə malikdir:

**5.4.1.** Şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.4.2.** Tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

**5.4.3.** Şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.4.4.** Şöbə üzrə hüquqi və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

**5.4.5.** Şöbənin əməkdaşları barədə Nazirə həvəsləndirmə tədbirləri görülməsi üçün təkliflər və intizam tənbehi tədbirləri görülməsi üçün təqdimatlar verir.

**5.4.6.** Şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

**5.4.7.** Şöbənin fəaliyyəti barədə Nazirliyin rəhbərliyinə mütəmadi olaraq hesabat verir;

**5.4.8.** Şöbədə kargüzarlıq işlərinin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarxili 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a müvafiq sahəni tənzimləyən digər qanunvericilik aktlarına uyğun aparılmasını və məxfilik rejimini təmin edir;

**5.4.9.** Bütün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Şöbəni təmsil edir;

**5.4.10.** Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir və hüquqlardan istifadə edir.

**5.5.** Şöbənin əməkdaşları vəzifə təlimatlarına uyğun olaraq Şöbənin bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin icrasının həyata keçirilməsini təmin edirlər.

**5.6.** Şöbənin hər bir əməkdaşı vəzifə təlimatlarında nəzərdə tutulmuş vəzifələrin vaxtında yerinə yetirilməsinə, eləcə də hazırladığı, araşdırdığı və imzaladığı sənədin Azərbaycan Respublikasının qanunvericilik aktarına, Nazirliyin rəhbərliyinin qərarlarına uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.